# Azərbaycan statistika xidmətinə Heydər Əliyev qayğısı



Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyev 1969-cu ildə Azərbaycan SSR KP MK-nın birinci katibi seçildiyi gündən Azərbaycan Kommunist Partiyasının plenumlarında və Mərkəzi Komitənin büro iclaslarında, həmçinin ayrı-ayrı nazirliklərin, digər mərkəzi icra hakimiyyəti orqanlarının və rayonların (şəhərlərin) fəaliyyətləri müzakirə edilən bütün tədbirlərdə Azərbaycan Respublikası Mərkəzi Statistika İdarəsinin (hazırda Dövlət Statistika Komitəsinin) məlumatlarına xüsusi önəm verirdi.

Ümummilli lider ölkədə sosial-iqtisadi inkişafın bütün istiqamətləri ilə yanaşı, statistikanın da inkişafına xüsusi diqqət yetirirdi. Onun Azərbaycana rəhbərliyinin birinci dövründə, yəni 1969-1982-ci illərdə ölkənin statistika orqanlarının həyatında baş vermiş əsas hadisələrdən biri Nazirlər Soveti yanında MSİ-nin Azərbaycan SSR MSİ-nə çevrilərək respublika nazirliklərinin və dövlət komitələrinin sırasına və MSİ-nin rəisinin isə respublika hökumətinin tərkibinə daxil edilməsi olmuşdur. 1973-cü ilin noyabrında Mərkəzi Statistika İdarəsi və yerli statistika orqanları haqqında yeni əsasnamələr təsdiq edilmişdir.

Yeni əsasnamə ilə qarşıya qoyulan vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirmək məqsədilə 1974-cü ildə Mərkəzi Statistika İdarəsinin rəhbərliyi möhkəmləndirildi. Əvvəllər partiya orqanlarında fəaliyyət göstərmiş Sabit Qasım oğlu Abbasəliyev Heydər Əliyev tərəfindən Azərbaycan Respublikası Mərkəzi Statistika İdarəsinə rəis təyin edildi.

Bu dəyişiklik nəticəsində MSİ-nin və onun yerli statistika orqanlarının işinin səviyyəsi ölçülməz dərəcədə yüksəlmişdi. Statistika orqanları tərəfindən hazırlanan materiallar: statistik məlumatlar, cədvəllər və bülletenlər, külliyyatlar, təhlili yazılar və məruzələr mütəmadi olaraq idarəedici orqanlar tərəfindən istifadə olunurdu.

Ölkədə xalq təsərrüfatının inkişafı ilə əlaqədar olaraq respublikanın statistika orqanları daha irimiqyaslı və mürəkkəb statistik işlərin yerinə yetirilməsini həyata keçirməyə başladılar. Belə işlərdən 1970-ci və 1979-cu illərdə əhalinin ümumittifaq siyahıyaalınmalarını göstərmək olar. 1972-ci il yanvarın 1-i vəziyyətinə təsərrüfat hesablı müəssisə və təşkilatlarda, 1973-cü il yanvarın 1-i vəziyyətinə isə ölkənin tarixində ilk dəfə olaraq büdcə təşkilatlarında xalq təsərrüfatı əhəmiyyətinə malik olan əsas fondların siyahıya alınması və yenidən qiymətləndirilməsi kimi böyük işlər həyata keçirilmişdir.

İlk dəfə 1966-cı ildə tərtib olunmuş ölkə üzrə sahələrarası balans 1972 və 1977-ci illərdə də tərtib edilmişdir.

Hedər Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə müntəzəm olaraq illik “Azərbaycan SSR Xalq Təsərrüfatı” və “Azərbaycan rəqəmlərdə” adlı statistik külliyyatları nəşr edilmişdir. Nəşr edilən statistik külliyyatların məlumatları respublikanın iqtisadi və mədəni nailiyyətlərini və inkişafını əks etdirir, planlaşdırma və təsərrüfat orqanlarının, elm idarələrinin, təşviqatçıların böyük marağına səbəb olur və onlar tərəfindən geniş istifadə edilirdi.

Statistikanın bütün sahələri üzrə vaxtaşırı olaraq sahə külliyyatları və xalq təsərrüfatı sahələrinin inkişafını tam əks etdirmək üçün keçirilmiş birdəfəlik uçotaalmaların və müayinələrin nəticələri üzrə materiallar buraxılırdı. 1970-ci ildə “Azərbaycanda kənd təsərrüfatı”, “Azərbaycanda mənzil-kommunal təsərrüfatı” və s. külliyyatlar nəşr edilmişdir.

1969-cu ildən 1980-ci ilədək Mərkəzi Statistika İdarəsi tərəfindən müntəzəm olaraq “Azərbaycanın xalq təsərrüfatı” illik statistik külliyyatı, “Azərbaycan rəqəmlərdə” qısa külliyyatı və sahələr üzrə 50-dən çox külliyyat nəşr edilmişdir.

1970-80-ci illərdə Heydər Əliyevin köməyi ilə Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin mütəxəssisləri SSRİ MSİ tərəfindən xarici ölkələrdə statistikanın yaradılması və təşkilinə cəlb olunmuşlar. Bu dövrdə Azərbaycan SSR Statistika İdarəsinin mütəxəssisləri S.Hacıyev və F.Abidov xarici ölkələrdən Mali, Konqo və Kubada rəsmi statistikanın yaradılmasında fəal iştirak etmişlər.

1969-82-ci illərdə dövlət statistikasının təkmilləşdirilməsi müasir hesablama texnikasının bazasında uçot-statistika məlumatlarının toplanması və işlənməsinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasının daha da inkişafı şəraitində baş vermişdir.

Heydər Əliyev digər sahələrdə olduğu kimi, ölkə statistika sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi məsələsini də daima diqqət mərkəzində saxlayırdı. Müntəzəm olaraq BHM-də və yerlərdə hesablama şəbəkəsi inkişaf etdirilirdi. Rayon və şəhərlərdə vahid statistika orqanının — məlumat-hesablama mərkəzlərinin (stansiyalarının) yaradılması aşağı statistika orqanlarının işinin təkmilləşdirilməsində böyük əhəmiyyət kəsb etmişdir.

Bu dövrlərdə Maşın Hesablama Stansiyasının bazasında hesablama mərkəzinin yaradılması əsas statistik işlərin Elektron Hesablama Maşınlarında (EHM) işlənməsinin təşkilinə imkan yaratmışdır. Dövlət statistika sistemində avtomatlaşdırmanın növbəti mərhələsinin layihələşdirilməsinə və yaradılmasına başlanmışdı. Müntəzəm olaraq hesablama texnikası yeniləşdirilirdi. Qeyd etmək kifayətdir ki, 1980-ci ildə MSİ-nin hesablama sistemi öz tərkibində 74 hesablama təşkilatını, o cümlədən bir respublika hesablama mərkəzini, 9 rayon və şəhər məlumat-hesablama mərkəzini və 64 məlumat-hesablama stansiyasını birləşdirirdi. Onların maşın parkında 3,5 min vahiddən çox texnika mövcud idi ki, bunların arasında EHM-ES 1022, “Minsk” seriyalı üç maşın, perforasiya-hesablama kompleksi M-5000, 5010, elektron hesablama avtomatları “Sellatron”-S-8205, 8205 M, hesablama-perforasiya maşınları, “Askota” mühasibat maşınları, EFA və FME faktura maşınları və başqaları olmuşdur.

Respublika MSİ-nin hesablama sistemi statistik işlərin mexaniki işlənməsindən əlavə, xalq təsərrüfatında mexanikləşdirilmiş uçotun tətbiqi üzrə də böyük işlər görmüşdür. Respublika səviyyəsində statistik hesabatların sistemli işlənməsinə xüsusi diqqət yetirilmişdir.

Əldə edilən nailiyyətlərə görə Baş Hesablama Mərkəzi müttəfiq respublikaların BHM-ləri arasında 8 dəfə, həmçinin respublika daxilində müxtəlif nazirlik və komitələrin BHM-ləri arasında 9 dəfə “Keçici Qırmızı Bayraq”la təltif edilmişdir.

Azərbaycanın statistika orqanlarına Azərbaycan hökuməti tərəfindən mütəmadi olaraq kömək göstərilmiş, əmək şəraiti nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmış, iş yerləri genişləndirilmiş və yeni avadanlıqlarla təchiz edilmişdir. 1961-ci ildən tikintisi üçün yer ayrılmış, 1965-ci ildən tikintisinə başlanmış MSİ üçün yeni bina, Heydər Əliyevin şəxsi nəzarəti sayəsində 1971-ci ilin sonlarında istifadəyə verilmiş, 1972-ci ildən istifadəsinə başlanılmışdır. Geniş iş şəraitinə malik olan bu binanın istifadəyə verilməsi ilə yarandığı ilk gündən parçalanmış şəkildə Bakı şəhərinin müxtəlif ünvanlarında yerləşən Mərkəzi Statistika İdarəsi axır ki, bir inzibati binada fəaliyyət göstərməyə başlamışdır. Mərkəzi Statistika İdarəsinin inzibati binası istifadəyə verildikdən sonra 1977-ci ildən başlayaraq yerli statistika orqanlarında da iş şəraitinin yaxşılaşdırılmasına, onlar üçün müasir tələblərə cavab verən inzibati binaların tikintisinə başlanmışdır. Yalnız 1977-1982-ci illərdə dövlətin dəstəyi ilə 26 rayon və şəhərdə 2-4 mərtəbəli binalar tikilərək istifadəyə verilmişdir. Bu proseslər ulu öndər Moskvaya, daha yuxarı vəzifəyə irəli çəkildikdən sonra da onun qurduğu əsaslar üzrə davam etdirilmişdir.

Heydər Əliyev statistiklərin iş şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların mənzil şəraitinin yaxşılaşdırılmasına da xüsusi önəm vermişdir. Onun ölkəyə rəhbərlik etdiyi dövrdə statistika orqanlarının onlarca əməkdaşı yeni mənzillərlə təmin olunmuşdur.

Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə milli kadrların yetişdirilməsi sahəsində uzaqgörənliklə həyata keçirdiyi kadr siyasəti Azərbaycanın statistika sistemindən də yan keçməmişdir. Bu dövrdə gənc milli kadrların şöbələrdə rəhbər vəzifələrə təyin olunması kütləvi xarakter almışdır ki, bu da Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra bu siyasətin nə qədər düzgün olduğunu sübut etmişdir. Göstərilənlərlə yanaşı, statistika orqanlarının bir çox əməkdaşları statistika orqanlarında müvəffəqiyyətli işlərinə görə orden və medallarla, Fəxri fərmanlarla mükafatlandırılmış, respublikanın “Əməkdar iqtisadçı”sı adına layiq görülmüşdür. Bir sıra əməkdaşların adları SSRİ Mərkəzi Statistika İdarəsinin və Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin “Fəxri Kitab”larına yazılmışdır, Əmək fəaliyyətlərinə görə Abidov F.C., Bəndəliyev Z.A., Məmmədov Ş.A., Məmmədov Y.Ə., Rzayeva H.B., Hacıyev S.C., Kotelevskaya Q.S., Sadıqova S.Ə., Fərziyev H.A., Çinçik V.Y. və digərləri Azərbaycan SSR-in “Əməkdar iqtisadçı”sı adına layiq görülmüşlər.

Müstəqillik illərində də ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin digər sahələrində olduğu kimi, rəsmi statistikada da inkişaf özünü biruzə verdi. Bu dövrdə Dövlət Statistika Komitəsində struktur dəyişiklikləri həyata keçirilmiş, rayon (şəhər) məlumat hesablama mərkəzləri ləğv edilmiş, bu mərkəzlərin bazasında rayon (şəhər) statistika idarələri (şöbələri) yaradılmışdır.

Yeni texniki vasitələrin və texnologiyanın tətbiqi ilə yanaşı, statistik hesabatların fərdi kompüterlərdə işlənməsinin təmin edilməsi məqsədi ilə, yeni proqramlaşdırma dillərinin (FoxPro, Paskal, Delfi, PHP, Java), sistemlərinin (indos, Novell, Linux və s.) və məlumat bazalarının aparılması (Domino, Oracle və s.) işlərinin proqramçılar tərəfindən mənimsənilməsinə və mərhələlərlə bütün statistik hesabatların işlənməsinin yenidən proqramlaşdırılmasına nail olundu. Bütün bu işlər 2000-ci ilə qədər artıq başa çatdırılmışdı. 2000-ci ildən başlayaraq, Dövlət Statistika Komitəsinin inzibati binasında yeni lokal məlumat şəbəkəsinin qurulmasına başlanmış və bu iş müvəffəqiyyətlə həyata keçirilmişdir. Dövlət Statistika Komitəsinin serverlər mərkəzi yaradılmış və korporativ məlumat şəbəkəsi qurulmuşdur. Bütün struktur vahidləri ilə məlumat mübadiləsinə imkan verən internet əlaqələri yaradılmışdır. İnternet əlaqələrindən istifadə nəticəsində dövlət idarəetmə orqanları ilə və nazirliklərlə (Vergilər, Səhiyyə, Ədliyyə və digər) çevik məlumat mübadiləsinin təşkil edilməsinə nail olunmuşdur. “Vahid pəncərə” qaydası əsasında sahibkarlıq subyektlərinin qeydiyyatını həyata keçirən Vergilər Nazirliyi ilə daimi qarşılıqlı məlumat mübadiləsi aparılır.

1998-ci ildən “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sistemində məlumat texnologiyalarının inkişafı konsepsiyası” hazırlanmışdır (2005-ci ildə yenidən işlənmişdir). Bu konsepsiyanın həyata keçirilməsi nəticəsində Dövlət Statistika Komitəsinin korporativ (paylanmış) şəbəkə sisteminin qurulması artıq başa çatdırılmış və iş yerlərinin kompüterlərlə təmin edilməsinə tam nail olunmuşdur.

Yeni məlumat bazaları texnologiyalarının tətbiqi üsullarından istifadə etməklə, statistikanın bütün sahələrini əhatə edən makro göstəricilər bazası yaradılmış və interaktiv rejimdə informasiyanın daxil edilməsi, təqdim olunması həyata keçirilmişdir. Beləliklə, dövriliyi təmin olunmaqla, 2 milyona yaxın göstəricinin interaktiv rejimdə işlənməsi həyata keçirilmişdir.

Dövlət Statistika Komitəsinin müasir tələblərə cavab verən və məlumat tutumu yüksək olan veb-səhifəsi yaradılmışdır. Bu səhifənin hazırlanmasında yeni texnoloji imkanlardan istifadə edilmiş, məlumat bazasına giriş, axtarış sisteminin tətbiqi, kitabxanadan istifadə üçün geniş imkanlar yaradılmışdır. Statistikanın bütün sahələrini əhatə edən hesabat formalarının hesabat blankları, hesabatların tərtib olunmasına dair təlimatlar və hesabatların elektron formada təqdim edilə bilməsi üçün proqram vasitələri səhifədə yerləşdirilərək istifadəçilərin ixtiyarına verilmişdir. Səhifənin strukturunda daimi dəyişikliklər edilərək, məlumatların əldə edilməsinin asanlaşdırılması istiqamətində proqramlaşdırma və səhifənin idarə olunması işləri həyata keçirilir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sistemində statistik məlumatların yığılması, işlənməsi və təqdimatı prosesində standart paket olan SPSS proqram paketinin tətbiq edilməsi üçün işlər həyata keçirilmişdir.

1996-cı il iyun ayının 29-da Nazirlər Kabinetinin Rəyasət Heyətinin üzvlərinin, iqtisadiyyatın inkişafında mühüm rol oynayan nazirliklərin başçılarının və Prezidentin İcra Aparatı rəhbər işçilərinin iştirakı ilə 1996-cı ilin birinci yarısı üçün işin yekunlarına dair keçirilmiş iclasda ulu öndərimiz Heydər Əliyev demişdir: “Bizdə Statistika Komitəsi var. ... Statistika Komitəsi əsas orqanlardan biridir” .

Ulu öndərin ölkədə həyata keçirdiyi islahatlar çərçivəsində 18 fevral 1994-cü ildə “Statistika haqqında” Azərbaycan Respublikasının Qanununun imzalanması statistika sahəsində yeni bir dövrün başlanmasına geniş imkanlar yaratmışdır. Qanunda Avropa İqtisadi Komissiyasının 1992-ci il aprelin 15-də Cenevrədə keçirilən 47-ci sessiyasının qərarı ilə təsdiq edilmiş “Avropa İqtisadi Komissiyası regionunda rəsmi statistikanın əsas prinsipləri”nin bütün tələbləri nəzərə alınmışdır. Qanunun qəbul edilməsi statistika orqanlarını sovetlər dövrünə aid olan funksiyalardan azad etdi, statistik fəaliyyətin qanunilləşdirilməsinin təmin olunmasında mühüm rol oynadı və Azərbaycan tarixində ilk dəfə olaraq qanunvericiliklə statistika sahəsində əsas anlayışları, onun subyektlərinin hüquq və vəzifələrini, fəaliyyətinin əsas parametrlərini müəyyənləşdirdi. Beynəlxalq standartlara cavab verən bu qanunda statistik forma və metodların demokratik prinsiplərə uyğunlaşdırılması nəzərdə tutulmaqla rəsmi statistika sisteminin təşkili, səlahiyyət və vəzifələri, kadr təminatı və işçilərin sosial müdafiəsi ilə bağlı digər məsələlər tənzimlənmişdir.

Azərbaycan Respublikasında təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olan subyektlərin Dövlət registrinin və beynəlxalq təsnifatlarla uzlaşdırılmış milli təsnifatların yaradılması, ölkə ərazisində dövlət statistika müşahidələrinin keçirilməsi, statistik sirr, dövlət statistika orqanları işçilərinin sosial müdafiəsi və s. xüsusi maddələr qanunda öz əksini tapmışdır.

Qanun dövlət statistika orqanlarının nüfuzunun artması, hesabat intizamının yüksəlməsi və dövlət məlumatlandırma sisteminin əsas tərkib hissəsi sayılan dövlət statistika sisteminin təkmilləşdirilməsində əsas rol oynayır.

Qanunda müntəzəm olaraq ölkədə həyata keçirilən islahatlara və statistikaya dair beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan qərarlara əsasən müvafiq dəyişikliklər aparılır.

Statistika sahəsində digər normativ hüquqi aktlar daima təkmilləşdirilmiş, “Azərbaycan Respublikasında statistik məlumatların təqdim edilməsi qaydaları”, “Azərbaycan Respublikası statistika sisteminin gücləndirilməsi”, “Azərbaycan Respublikasında müəssisələr statistikası”, “Dövlət Statistika Komitəsinin kadr siyasəti”, “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sistemində məlumatlar texnologiyalarının inkişafı perspektivi” və “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin informasiya texnologiyalarının təhlükəsizliyi” konsepsiyaları hazırlanmışdır.

Keçən əsrin 90-cı illərində ölkədə aparılmış yeni inzibati ərazi bölgüsünə uyğun olaraq, statistika sisteminin strukturunda da bir sıra dəyişikliklər edildi və Ağstafa, Qobustan, Hacıqabul, Siyəzən, Xızı, Xocalı və Xocavənd rayonlarında, Naxçıvan Muxtar Respublikasında 1990-cı ildə Sədərək və 2004-cü ildə Kəngərli, 2009-cu ildə Naftalan Şəhər Statistika İdarəsi yaradıldı.

Bu dövrdə bazar iqtisadiyyatının tələblərinə cavab verən yeni struktur bölmələri: qiymət statistikası, milli hesablar və makroiqtisadi göstəricilər, regionların sosial-iqtisadi inkişafı, ərzaq təhlükəsizliyi üzrə informasiya təminatı şöbələri və onun ayrı-ayrı şöbələrinin tərkibində Dövlət reyestrinin təşkili və təsnifatlar, xarici ticarət, gizli iqtisadiyyat, maliyyə və bank, turizm sektorları yaradılmışdır.

Hazırkı mərhələdə rəsmi statistika Azərbaycanda əhəmiyyətli sosial-iqtisadi inkişaf dəyişiklikləri, inzibati islahatlar, büdcə proseslərinin islahatları, maliyyə hesabatlarının beynəlxalq standartlara keçidi şəraitində inkişaf edir ki, bu da rəsmi statistika fəaliyyətində cəmiyyətin həyatındakı dəyişikliklərə tez (sürətlə) cavab verən, çevik statistik məlumatlarla təminat sisteminin formalaşmasına prinsipcə yeni yanaşmaların axtarılması və həyata keçirilməsi vəzifələrini müəyyənləşdirir.

İqtisadi fəal əhalini, rəsmi və gizli işsizliyi, müxtəlif əhali kateqoriyalarının həyat səviyyəsini əks etdirən göstəricilər sistemi təcrübədə tətbiq edilmiş, əhalinin faktiki alıcılıq qabiliyyətini izləməyə imkan verən “əhalinin sərəncamında qalan real gəlirləri” göstəricisindən istifadəyə başlanmışdır. Ev təsərrüfatı statistikası yenidən təşkil edilmişdir.

Azərbaycanın dövlət müstəqilliyi qazanması əvvəllər respublika üçün əhəmiyyətsiz sayılan, hazırda isə ölkəmiz üçün çox böyük əhəmiyyətə malik olan xarici ticarət statistikasının yaradılması valyuta vəsaitlərinin hərəkəti, ixrac və idxal məhsullarının fiziki həcmi, ixrac və idxal məhsulları üzrə xarici və daxili qiymətlərin nisbətləri haqqında məlumatlar əldə etməyə imkan vermişdir.

Dövlət Statistika Komitəsi tərəfindən həyata keçirilən və statistikanın beynəlxalq standartlara uyğunlaşdırılması problemlərinin həllində böyük əhəmiyyət kəsb edən irihəcmli işlərdən biri də Statistik vahidlərin Dövlət registrinin yaradılmasıdır.

Həmçinin, statistika təcrübəsində istifadə etmək üçün “Avrostatın statistikaya tələbləri”nin və “Minilliyin bəyannaməsində əks olunmuş inkişaf (tərəqqi) məsələlərinə nail olunmanın monitorinqi üçün göstəricilər”in Azərbaycan versiyaları hazırlanmışdır.

Müstəqillik illərində keyfiyyətli seçmə müşahidələrin təşkili üçün beynəlxalq təsnifatlarla uzlaşdırılmış 31 milli təsnifat hazırlanmışdır. Təsnifatların düzgün tətbiq olunmasını təmin etmək məqsədilə Norbert Raynerin “Beynəlxalq təsnifatlar sistemi” kitabı Azərbaycan dilinə tərcümə edilmiş, “Beynəlxalq təsnifatlar və onların Azərbaycanda tətbiqi” kitabı hazırlanmışdır.

Ölkədə milli hesablar sisteminin işlənməsi üçün əsasən Avropa İttifaqında istifadə olunan və “Birləşmiş iqtisadi hesabların Avropa sistemi” kimi məşhur olan BMT MHS variantından istifadə edilir. Bu variantdan istifadə etməklə, 1990-1998-ci illər üçün milli hesablar sistemi yaradılmışdır. Ümumi daxili məhsul (ÜDM) göstəricisinin milli hesablar sistemində əsas makroiqtisadi göstərici hesab edildiyini nəzərə alaraq, BMT-nin mövcud metodologiyasına uyğun olaraq Dövlət Statistika Komitəsi cari və müqayisəli qiymətlərlə sahə və bölmələr üzrə ÜDM-in illik, rüblük və aylıq hesablamalarını həyata keçirir. 1993-cü ildən başlayaraq, müqayisəli qiymətlərlə ÜDM-in aylıq qiymətləndirilməsi Dövlət Statistika Komitəsi tərəfindən təhlil edilir və müxtəlif nəşrlərdə dərc etdirilir. Bu işlər Beynəlxalq Valyuta Fondunun (BVF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) və Dünya Bankının metodoloji köməyi və məsləhətləri ilə həyata keçirilmişdir.

Dövlət Statistika Komitəsinin yaxından iştirakı ilə BVF ilə razılaşdırılmış metodologiya əsasında da respublika Mərkəzi Bankı tərəfindən respublikanın xarici iqtisadi əlaqələrinin bütün tərəflərini əks etdirən tədiyə balansı tərtib edilir.

Ölkənin ümumi iqtisadi inkişaf səviyyəsini müqayisə etmək, milli valyutanın real alıcılıq qabiliyyətinin prioritetlərini müəyyənləşdirmək məqsədilə İƏİT ekspertlərinin iştirakı ilə və MDB Dövlətlərarası Statistika Komitəsi ilə qarşılıqlı əlaqədə beynəlxalq iqtisadi müqayisələr həyata keçirilmişdir.

Statistikada həyata keçirilən yeniliklər son nəticədə öz əksini statistika orqanlarının son məhsulu olan statistik nəşrlərdə tapmışdır. Son illər bu sahədə bir sıra nailiyyətlər əldə edilmiş, nəşrlərin keyfiyyəti yaxşılaşdırılmış, mövzular genişləndirilmiş, yayılma dairəsi genişləndirilərək ingilis dilində nəşrlərə başlanmışdır.

Komitənin veb-səhifəsində bütün sahələr üzrə məlumatlar yerləşdirilmiş və bu məlumatların daxil edilməsi və yeniləşdirilməsinin çevikliyi təmin edilmişdir.

Heydər Əliyev tərəfindən həyata keçirilən Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiya, xarici dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi sahəsində strategiyaya uyğun olaraq, ölkədə statistikanın yenidən qurulmasında müntəzəm olaraq beynəlxalq təşkilatların və xarici dövlətlərin milli statistika orqanlarının mümkün əməkdaşlığından geniş istifadə edilir. Avropa Statistika Bürosu ilə birlikdə Dövlət registrinin, müəssisələr statistikasının (sənaye, kənd təsərrüfatı, əsaslı tikinti və ticarət statistikası üzrə), demoqrafiya, əmək, gizli iqtisadiyyat və xarici ticarət statistikasının və statistik materialların beynəlxalq tələblərə uyğun nəşrləri, beynəlxalq standartlara uyğun təsnifatların yaradılması və təkmilləşdirilməsi, həmçinin ölkə statistika sisteminin kompüterlərlə təmin edilməsi sahəsində layihələr həyata keçirilmişdir. Bu layihələrin həyata keçirilməsi Almaniya, Hollandiya, İsveç, Finlandiya və Polşanın statistika orqanları ekspertlərinin yaxından köməyi ilə həyata keçirilmiş və statistikanın müxtəlif istiqamətlərində Türkiyə Cümhuriyyəti Statistika İnstitutu ilə sıx əməkdaşlıq yaradılmışdır.

Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra Dövlət Statistika Komitəsi BMT və onun regional iqtisadi komissiyaları, Avropa İttifaqı, BVF, BƏT, Dünya Bankı, Asiya İnkişaf Bankı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, UNESCO, UNİSEF, İƏİT, İƏT, Beynəlxalq Nəqliyyat Forumu, Beynəlxalq Miqrasiya Təşkilatı, “21-ci yüzillikdə inkişaf üçün statistika sahəsində əməkdaşlıq” konsorsiumu, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Yol Federasiyası, TRASECA, UNİDO, Beynəlxalq Energetika Agentliyi, Avropa İqtisadi Komissiyası, Avropa Statistika Bürosu, MDB Dövlətlərarası Statistika Komitəsi, Qara dəniz ölkələrinin Əməkdaşlıq Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya və Sakit Okean Hövzəsi ölkələrinin İqtisadi-sosial Komissiyası, Avropa Sosial Xartiyası kimi beynəlxalq təşkilatlarla və dünyanın 40-dan çox ölkəsinin statistika orqanları ilə əməkdaşlıq edir və məlumat mübadiləsi aparır.

Bütün yuxarıda qeyd olunanlar, yeni statistika sahəsində əldə olunan nailiyyətlər dövlətin və hökumətin yüksək qayğısı sayəsində mümkün olmuşdur. Ulu öndər Heydər Əliyev öz çıxışlarında statistikaya yüksək qiymət vermişdir. Yeni Azərbaycan Partiyasının 2001-ci ilin noyabrında keçirilən II qurultayındakı tarixi nitqində demişdir: “Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır”.

Statistikanın beynəlxalq tələblər səviyyəsində qurulması üçün qanunvericilik bazasının yaradılması Heydər Əliyevin rəhbərliyi dövründə həyata keçirilmişdir. Statistikanın qanunvericilik bazası yaradılmış, dövlət proqramları qəbul olunmuş, ardıcıl islahatlar həyata keçirilmişdir.

Dövlət Statistika Komitəsi ölkədə rəsmi statistika məlumatlarının istehsalçısı kimi mərkəzi funksiya və səlahiyyətlərə malikdir və Azərbaycanın milli statistika sisteminin əlaqələndiricisi olmaqla rəsmi statistikanın təxminən 80%-nin istehsalçısıdır. Əlaqələndirici funksiya “Statistik işlər proqramı”nda, eləcə də “2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı”nda əks olunmuşdur. Ümumiyyətlə, Dövlət Statistika Komitəsi və onun yerli orqanları kifayət qədər potensiala və statistik işlər proqramına, eləcə də Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əhatə olunması imkanına malikdir. Yaxın gələcəkdə daha sistematik və mükəmməl idarəetmə, nəzarət və qiymətləndirmə planlaşdırılır.

Statistikanın düşünülmüş inkişafı Azərbaycan Respublikasının Prezidenti, ulu öndərin davamçısı cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə də davam etdirilmişdir. İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə rəsmi statistikanın inkişafı ilə bağlı “2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair” və “2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı” kimi iki Dövlət Proqramı qəbul edilmişdir. Bu proqramlar ölkədə rəsmi statistikanın daha da inkişafına təkan vermiş, açıq statistik məlumatlara girişin sadəliyi və bütün maraqlı istifadəçilər üçün onların formalaşdırma metodologiyalarının şəffaflığına, milli statistika göstəricilərinin, onların formalaşdırma metodlarının müəyyənləşdirilməsində beynəlxalq statistik standartların və təsnifatların tətbiqinin daha da genişləndirilməsinə, statistika təcrübəsində elmin müasir nailiyyətlərindən istifadəyə və respondentlərə düşən statistik məlumat yükünün azaldılmasına, ölkənin sosial-iqtisadi inkişafını və mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətini xarakterizə edən göstəricilərin çevik hesablanması üçün metodoloji əsasların yenilənməsinə, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə statistik məlumatların toplanması, formalaşdırılması, saxlanması və yayılmasının təkmilləşdirilməsinə, dövlət hakimiyyəti orqanlarının statistik məlumat ehtiyatlarının inteqrasiyasının həyata keçirilməsinə, rəsmi statistika məlumatlarının keyfiyyətinin yüksəldilməsinə, respondentlərdən alınan ilkin statistik məlumatların konfidensiallığının təmin edilməsi metodlarının təkmilləşdirilməsinə nail olunmuşdur.

Son illərdə Dövlət Statistika Komitəsinin beynəlxalq fəaliyyəti də daim diqqət mərkəzində olmuşdur. Fərəhli hal ondan ibarətdir ki, hazırda Dövlət Statistika Komitəsinin mütəxəssisləri statistika sahəsində 9 beynəlxalq işçi və ya ekspert qrupunun işində öz fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirirlər. Komitənin şöbə müdirləri N.Süleymanov və Q.Əliyev beynəlxalq təşkilatlar tərəfindən rəhbərlik etdikləri fəaliyyət üzrə digər ölkələrdə seminar keçirməyə dəvət olunmuşlar. Komitənin mütəxəssisləri tərəfindən statistika sahəsində hazırlanan məqalələr beynəlxalq təşkilatlar və dünya ölkələrinin statistika orqanları tərəfindən buraxılan jurnallarında və mətbuat orqanlarında mütəmadi olaraq dərc olunur.

Yuxarıda qeyd olunan və olunmayan bir sıra digər işlərin məntiqi nəticəsidir ki, sınaq, təftiş və sertifikatlaşdırma sahəsində dünya liderlərindən olan “Bureau Veritaş” şirkətinin Azərbaycandakı nümayəndəliyi tərəfindən kənar (xarici) auditin yekunları üzrə 15 avqust 2013-cü il tarixində şirkət tərəfindən Dövlət Statistika Komitəsinə “Rəsmi statistika məlumatlarının istehsalı və yayılması” sahəsi və İSO 9001:2008 standartı üzrə 3 il müddətinə sertifikat verilmişdir. Bu sertifikatı almaqla Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Qazaxıstan Respublikasının Statistika Agentliyindən sonra MDB ölkələrinin statistika orqanları arasında İSO 9001:2008 sertifikatı almış 2-ci, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları arasında isə 1-ci təşkilat olmuşdur.

Son illərdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatlara, quruculuq-abadlıq, tikinti-bərpa işlərinə uyğun olaraq, yerli statistika orqanlarının işçilərinin iş şəraitinin yaxşılaşdırılması və maddi texniki bazalarının təkmilləşdirilməsi məqsədilə Dövlət Statistika Komitəsi sistemində də məqsədyönlü iş aparılmışdır. Rayon (şəhər) statistika idarələrinin inzibati binalarının müasir tələblərə cavab verəcək şəkildə yenidən qurulması, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və işçilərin iş şəraitinin beynəlxalq tələblərə cavab verəcək şəkildə qurulması əsas prioritet sahələrdən biri olmuşdur. “2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı”na uyğun olaraq Gəncə, Sumqayıt və Mingəçevir şəhər, Ağdam, Balakən, Dəvəçi, Goranboy, Qax, Qəbələ, Samux, Siyəzən, Qusar, Ağstafa, Hacıqabul, Zaqatala, Qobustan, Gədəbəy, Daşkəsən, Göyçay, Lerik, Yardımlı, Xızı, Saatlı, Tərtər, Ucar rayon statistika idarələri üçün inzibati binalar tikilmişdir ki, bu da ölkə rəhbərliyinin statistika əməkdaşlarına diqqətinin bariz nümunəsidir.

Dövlət Statistika Komitəsinin kollektivi gələcəkdə də ölkə Prezidenti tərəfindən statistika orqanları qarşısında qoyulan hər bir vəzifənin vaxtında və yüksək keyfiyyətdə yerinə yetirilməsi əzmindədir.

**Alxan MANSUROV,**
**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsinin**
**Statistika işlərinin əlaqələndirilməsi**
**şöbəsinin müdiri, kollegiyanın üzvü.**